# Antarktidanın ən yüksək zirvəsinə qalxan azərbaycanlı: "Əlcəkləri çıxaran kimi barmaqlarım donmağa başladı"

**Antarktidanın ən yüksək zirvəsi olan Vinson dağını (4892 metr) fəth edən azərbaycanlı alpinist Elmira Aslanova AZƏRTAC-a müsahibə verib.**

*- Vinson zirvəsinə qalxmaq ideyası sizdə necə formalaşdı və nə vaxtdan bunu planlaşdırırdınız?*

- Vinson dağı "7 Zirvə" layihəsinə daxildir. Bu layihə mənim arzumdur və buna doğru irəliləyirəm. Bu, Everestdən sonra planlaşdırdığım növbəti layihə idi və ümid edirəm ki, gələn il proqramın hamısını yerinə yetirə biləcəyəm.

*- Ekspedisiya neçə gün baş tutdu?*

- Noyabrın 26-dan dekabrın 3-dək davam etdi.

*- Zirvəyə qalxma və enmə nə qədər vaxt apardı?*

- Zirvəyə çıxmaq 1 gün çəkir. Orta hesabla qalxma 7, enmə isə təxminən 3 saat olur.

*- Səfər zamanı qarşılaşdığınız ən ciddi və gözlənilməz çətinlik nə oldu?*

- Dağdakı çətinlik elə bir yerdə ortaya çıxdı ki, ümumiyyətlə, orada belə bir şey gözləmirdim. Zirvəyə çatmağa təxminən 1,5 saat qalmış eynəyimin kənar hissəsi qopub düşdü. Mən onu düzəltmək üçün isti əlcəklərimi çıxartdım. Əlavə nazik əlcəklər olsa da, barmaqlarım dərhal donmağa başladı. Bunu görən bələdçim əlcəkləri yenidən geyinməyi əmr etdi və dedi ki, əgər barmaqlarım donmağa başlasa, məni dərhal aşağı göndərəcək. Buna inana bilmirdim.



*- Sonra nə baş verdi?*

- Növbəti dəfə eynəyimin donmuş şüşəsini təmizləmək üçün əlcəyimi çıxaranda bələdçi dərhal rabitə ilə nəzarətçilərə xəbər verdi ki, məni aşağı endirsinlər. Şokda idim. Çünki hədəflədiyimiz yerə cəmi 1,5 saat qalmışdı. Nə qədər çalışsam da, bələdçi buna icazə vermədi. Dedi ki, zirvə ən vacib olan deyil, inan mənə, istəmirəm ki, zirvədə barmaqların donsun. Mən isə "aşağı bir şərtlə düşərəm ki, sabah yenidən şans verəcəksiniz" söylədim. Bələdçi müxtəlif variantlar olacağını bildirdi. Məni nəzarətçi ilə birlikdə aşağı göndərdilər. İnana bilmirdim. Çünki o qədər yol getsəm də, zirvəyə çata bilməmişdim.

Düşərgəyə qayıdanda dedim ki, sabah yenidən çıxmaq istəyirəm. Nəzarətçilər isə bildirdilər ki, bu mümkün deyil və onların təcrübəsində belə hal ilk dəfə yaşanır. Çünki mən demək olar zirvəyə çatmışdım və onların fikrincə, ertəsi gün yenidən yola çıxmağa gücüm olmayacaqdı. Mən isə israr etməyə və yalvarmağa başladım.

*- Nəticədə sizə icazə verdilər...*

- Dedilər ki, rəhbərliklə danışmalıdırlar və səhər mənə cavab verəcəklər. O gecə yata bilmədim. Bir tərəfdən anlayırdım ki, güc toplamaq üçün yatmaq lazımdır, amma ikinci şans ala bilməmək fikri yuxumu tamam qaçırırdı. Səhər isə mənə bələdçi Tom və nəzarətçi ilə birlikdə yola çıxacağımı dedilər. Onların məqsədi yolda olan göstəriciləri yeniləmək idi. Yenidən şans verdiklərinə görə çox sevindim. Tom məni dəstəklədi və zirvəyə çatacağıma inandığını söylədi. Nəticədə mən zirvəni fəth etdim və buna görə çox xoşbəxtəm.

Azərbaycan.- 2025.- 9 dekabr (№259).- S.12.